# Tezliklə pandemiyaya qalib gələcəyik



***Pandemiyaya qarşı mübarizə ilə bağlı dövlət başçısının gördüyü kompleks işlər təqdir olunmalıdır. Qeyd etməliyik ki, həyata keçirilən bütün tədbirlər, o cümlədən məhdudlaşdırıcı tədbirlər vətəndaşlarımızın təhlükəsizliyini, sağlamlığını təmin etmək və onların həyatını qorumaq məqsədi daşıyır. Bu tədbirlərin yumşaldılması ilə yoluxanların sayının artdığına görə karantin rejimi iyunun sonunadək uzadılıb ."Bakı Medikal Plaza" klinikasının şöbə müdiri, tibb üzrə fəlsəfə doktoru Rasim QƏHRƏMANOV pandemiya dövründə dövlətin gördüyü qabaqlayıcı tədbirlər və onların nəticələri ilə bağlı fikirlərini belə bildirdi:***

–Azərbaycanda koronavirus pandemiyasının yayılmasının qarşısının alınması, bu virusa yoluxanların müalicəsinin yüksək səviyyədə təşkili, onların tezliklə sağalması istiqamətində görülən işlər birbaşa Prezident İlham Əliyevin xüsusi nəzarətindədir. Virusun yayılmağa başladığı dövrdən dövlət başçısının tapşırığına əsasən zəruri qabaqlayıcı, profilaktik və təxirəsalınmaz tədbirlərin həyata keçirildiyi danılmazdır. Bu istiqamətdə görülən kompleks işlər çərçivəsində Prezident İlham Əliyevin təşəbbüsü ilə modul tipli 10 yeni xəstəxananın tikintisinin xüsusi əhəmiyyəti var. Bu, tətbiq olunan xüsusi karantin rejimi dövründə ölkənin səhiyyə sisteminin indiyədək görünməmiş bu qlobal çağırışa və arta biləcək xəstə sayına tab gətirməsi üçün mövcud xəstəxanaların infeksion çarpayı fondunun artırılması baxımından müstəsna rol oynayır.

Tikinti və quraşdırma işləri 3 həftə ərzində tamamlanan modul tipli ilk xəstəxana kompleksi paytaxtda mayın 7-də açılıb. Üç korpusdan ibarət, ümumilikdə, 100 palatada 200 çarpayı yeri olan modul tipli xəstəxana kompleksində orta-ağır simptomlu infeksion xəstələrin qəbulu və müalicəsi üçün hərtərəfli şərait yaradılıb. Kompleks bütün zəruri avadanlıq və sistemlə təchiz olunub. Burada quraşdırılan xüsusi havalandırma sistemi havanı ventilyasiya qurğusu ilə təmizlədikdən sonra palatalara ötürür. Modul tipli yardımçı xəstəxana korpuslarının mühüm üstünlükləri var. Belə ki, qısa müddət ərzində sadə beton bünövrə üzərində quraşdırılan bu tikililər pandemiya ilə mübarizə başa çatdıqdan sonra, yəni, zərurət olmadıqda tezliklə və asanlıqla digər sahələrə köçürülə və başqa məqsədlər üçün də istifadə edilə bilər.

İlk modul tipli xəstəxananın açılışındakı çıxışında dövlət başçımız ölkə ərazisində, ümumilikdə 10 belə xəstəxana kompleksinin quraşdırılacağını bildirmişdi. Onlardan ikisinin Bakıda, digərlərinin isə Gəncə, Sumqayıt, Abşeron, Şəki, İsmayıllı, Qəbələ, Qobustan və Şamaxıda istifadəyə veriləcəyi qeyd edilmişdi.

İyunun 9-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə üç modul tipli xəstəxananın açılışı verilən vədin həyata keçirildiyinin bariz nümunəsidir. Bunlar paytaxtın Bilgəh qəsəbəsində, Sumqayıt şəhərində və Abşeron rayonunun Saray qəsəbəsində quraşdırılan modul tipli xəstəxana kompleksləridir. Beləliklə, daha üç modul tipli xəstəxana istifadəyə hazırdır. Bu, COVID--19 pandemiyasının ölkəmizdə yayılması ilə mübarizədə olduqca mühüm əhəmiyyət kəsb edir. Modul tipli xəstəxanaların quraşdırılması ilə ölkənin səhiyyə sisteminin əlavə 2000 çarpayılıq ehtiyatı yaranır. Əsas məqsəd koronavirus xəstələrinin lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetməni, eyni zamanda, tibbi əlaqələndirməni təmin etməkdir. Komplekslərdən biri Bilgəh qəsəbəsindəki 28 saylı Bilgəh birləşmiş şəhər, digər ikisi isə Sumqayıtdakı 1 saylı şəhər və Abşeron rayonunun Saray qəsəbəsindəki xəstəxanalara təhkim olunub. Koronavirus xəstələrinin qəbulu və müalicəsi üçün hər cür şəraitin yaradıldığı, ümumilikdə 100 palata və 200 çarpayı yeri olan üç korpuslu bu xəstəxana kompleksləri mərkəzləşdirilmiş oksigen generator sistemi ilə təchiz olunub. Palatalara ötürülən hava ventilyasiya qurğusu ilə təmizlənir.

Qeyd edək ki, Bilgəhdə quraşdırılan modul tipli müalicə kompleksinin açılışı zamanı, eyni zamanda, Sumqayıt şəhər 1 saylı və Abşeron rayonunun Saray qəsəbəsindəki xəstəxananın nəzdində fəaliyyət göstərəcək modul tipli xəstəxanaların da videoformatda açılışı olub.

Açılışda Prezident görülmüş bütün tədbirlərin mərkəzində məhz Azərbaycan vətəndaşlarının sağlamlığının dayandığını və qabaqlayıcı tədbirlər nəticəsində bu gün vəziyyətə tam nəzarət olunduğunu bidirdi. Son 10 gün ərzində yumşalma dövründə bəzi vətəndaşların məsuliyyətsizliyinin yoluxanların sayını artırdığını qeyd edən dövlət başçısı, bu vəziyyətin tam nəzarət altında olduğunu dedi. Xəstəxanalarda kifayət qədər yerin olduğunu, əlavə iki min çarpayılıq 10 xəstəxanada koronavirus xəstələrinin müalicəsi üçün yer ayrıldığını vurğulayan Prezident bu günə qədər hələ ki, buna ehtiyac olmadığını diqqətə çatdırdı, əlavə etdi ki, biz bütün addımlarımızı elə atırıq ki, ən kritik vəziyyətə hazır olaq, ən böhranlı vəziyyətdə də bütün xəstələrə tibbi xidmət göstərilsin.

Dövlət başçısı dedi: "Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, koronavirusa yoluxan bütün xəstələr tibbi müəssisələrdə müalicə alır. Dünya praktikası tam başqadır. Bir çox ölkələrdə xəstəliyi simptomsuz keçirənlər, xəstəliyə düçar olmuş insanlar ev şəraitində müalicə alırlar, onları heç xəstəxanalara da qəbul etmirlər. Əlbəttə ki, bu, onların sağlamlığına təhlükə yaradır. Azərbaycanda koronavirusdan ölənlərin sayının az olmasının səbəblərindən biri də məhz odur ki, yoluxmuş bütün xəstələr tibbi müəssisələrə qəbul edilir və onlara lazımi xidmət göstərilir".

Bu müddət ərzində Azərbaycan dövləti ölkə daxilində çox böyük məsuliyyət göstərib. Qısa müddət ərzində tibbi maska müəssisələrinin fəaliyyətə başlaması, dezinfeksiya vasitələrinin artıq ölkəmizdə istehsal olunması, eyni zamanda, Azərbaycanda həkimlər üçün xüsusi geyimlərin, kombinezonların istehsalı, insanların virusa yoluxmaması üçün görülən qabaqlayıcı tədbirlər və buna ciddi nəzarət bu sahəyə dövlət tərəfindən nə qədər diqqət yetirildiyini təsdiqləyir. Dövlət başçısı qoruyucu vasitə kimi maskanın vacib olduğunu həmişə çıxışlarında diqqətə çatdırır. O, həmin açılışda da sağlamlığın qorunması naminə tibbi maskadan istifadənin vacibliyini vurğuladı və hamını bu qoruyucu vasitədən istifadəyə çağırdı: "Biz müşahidə edirik ki, vətəndaşlar son günlər tibbi maskalardan daha çox istifadə edirlər. Bir daha demək istəyirəm ki, bu, qapalı şəraitdə mütləqdir. Mən bütün qapalı yerlərdə tibbi maskadan istifadə edirəm və hər kəs də qapalı şəraitdə tibbi maskadan istifadə etməlidir -- ictimai nəqliyyatda, ofislərdə, alış-veriş mərkəzlərində. Açıq havada bu, tövsiyə olunur, əgər yaxın təmas yoxdursa, maskadan istifadə etməmək də olar. Ancaq qapalı şəraitdə hər kəs mütləq maskadan istifadə etsin, hər kəs məsafə saxlasın və şəxsi gigiyenaya fikir versin. Çünki cəmi bu üç amil, -- bunu həkimlər, müxtəlif ictimai xadimlər bəlkə də min dəfə deyiblər, -- gərək nəzərə alınsın: tibbi maska, bir yarım-iki metr məsafə və dezinfeksiya vasitələri. Bu amillər insanları həkimlərin yekdil rəyinə görə, 95 faiz qoruyur. Ona görə vətəndaşlardan artıq dərəcədə xahiş edirəm ki, bu çox sadə qaydalara əməl etsinlər və bilsinlər ki, koronavirus yoxa çıxmayıb".

İndi bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da məhdudiyyətlərlə bağlı yumşaldıcı addımlar atılır. Cəmiyyət əvvəlki normal həyatına qayıtmaq istəyirsə, qoyulan qaydalara, tələblərə birmənalı şəkildə əməl etməli, həm özünü, həm də digər insanları yoluxdurmaqdan çəkinməlidir. Yoluxma sayı azalarsa, karantin rejimi də aradan qalxacaq. İstəyimiz budur ki, tezliklə "Biz pandemiyaya qalib gəldik!"-- deyə bilək. Dövlət buna var gücü ilə çalışır. Məsuliyyət vətəndaşlarındır!

*Zərifə BƏŞİRQIZI,*
*"Xalq qəzeti"*